BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Sosial-siyasi elmlər seriyası 2010

# SEÇKİ PROSESİ VƏ SEÇKİ TEXNOLOGİYALARI

K.M.ŞIXİYEVA
*Bakı Dövlət Universiteti*
*konul_politoloq@mail.ru*

*Məqalədə seçkiyə hazırlıq və onun keçirilməsinin prinsipləri, seçki prosesinin həyata keçirilmə mərhələləri və seçki texnologiyaları təhlil olunmuşdur. Təsisat olaraq seçkinin təyin olunması mərhələsindən səsvermə mərhləsinə qədər olan proseslər sistemli olaraq araşdırılmışdır. Seçki texnologiyasının əsasını təşkil edən seçki kampaniyasının (seçki öncəsi proseslərin modelləşdirilməsi) tədqiqi, modelləri, strategiya və taktikası izah olunur. Eyni zamanda seçki prosesində narahatlıq doğuran məqama, seçkilərdən boyun qaçırmaq-absentizmə toxunulur və onun səbəbləri izah olunaraq, qarşısı alınma yolları da göstərilir.*

Vətəndaş cəmiyyətinin formalaşması və hüquqi dövlət quruculuğunda azad və ədalətli seçkilərin rolu inkar olunmaz faktdır. Demokratik ölkələrin təcrübəsi göstərir ki, insan hüquq və azadlıqlarının üstünlüyünə əsaslanan azad cəmiyyətin formalaşmasına yol məhz demokratik seçkilərdən keçir. Azad seçkilərin əhəmiyyəti demokratik siyasi rejimin yaradılmasına xidmət edir. Məhz seçkilər vasitəsilə ali hakimiyyət orqanları xalqın mandatı əsasında legitimlik əldə edir, vətəndaşların cəmiyyətin siyasi həyatında və dövlətin idarə olunmasında iştirakları təmin olunur.

Cəmiyyətin siyasi sisteminin demokratikləşdirilməsi şəraitində ictimaiyyətin diqqət mərkəzində duran ən vacib məsələlərdən biri seçki prosesinin təşkili, demokratik seçki prosedurlarının dünya praktikası əsasında gerçəkləşdirilməsidir. Seçki demokratiyanın başlıca təsisatı kimi keçirildiyi məkandan və zamandan asılı olmayaraq həmişə diqqət mərkəzində olmuşdur.

Seçkiyə hazırlıq və onun keçirilməsi bir sıra prinsiplərin gözlənilməsini tələb edir:

❖ **Seçkiləri təşkil edən və həyata keçirən xüsusi müstəqil orqanın (seçki komissiyalarının) yaradılmasının zəruriliyi.** Seçkiləri hazırlanmaq və onları keçirmək məqsədilə yaradılmış seçki komissiyaları hər bir ölkənin milli qanunvericiliyinə uyğun tam müstəqil orqan kimi yaradılmalı və onların dövlət hakimiyyəti, yerli özünüidarəetmə orqanlarından heç bir asılılığı olmamalıdır. Bu orqanların öz səlahiyyətləri daxilində qəbul etdikləri aktların icrası dövlət hakimiyyəti, yerli özünüidarə orqanları və seçkilərdə iştirak edən subyektlər üçün məcburi xarakter daşıyır.

❖ **Seçki prosesinin fasiləsizliyi və ardıcıllığı**. Seçki prosesinin fasiləsizliyi seçki kampaniyası başlanandan seçkilərin nəticələri rəsmi təsdiq edilənədək bütün proseslərin qanunla müəyyən olunmuş müddətdə aparılmasını nəzərdə tutulur. Konkret seçki hərəkətinin qanunda nəzərdə tutulmuş vaxtdan əvvəl başa çatdırılması, bu müddətin dayandırılması və ya uzadılması yolverilməz hesab edilir.

Seçki prosesinin ardıcıllığı bu prosesin bütün mərhələlərinin qanunla müəyyən edilmiş ardıcıllıqla aparılmasını nəzərdə tutur.

❖ **Seçki prosesinin qanunauyğunluğu**. Bu prinsipə görə seçki kampaniyasının bütün mərhələləri müvafiq seçki qanunlarının tələblərinə uyğun aparılmalı, seçkiləri hazırlayan və həyata keçirən orqanlar, habelə seçkilərdə iştirak edən bütün subyektlər öz hüquq və vəzifələrini qanunun tələbləri çərçivəsində reallaşdırmalıdırlar. Burada qanunun tələblərini pozan şəxslərin məsuliyyətə cəlb edilməsinə dair məsələlər də təmin edilməlidir.

❖ **Seçki prosesinin aşkarlığı**. Bu prinsip seçki kampaniyasının bütün mərhələlərində konkret seçki hərəkətlərinin açıq aparılmasını nəzərdə tutur, lakin o, bəzi seçki hərəkətləri üçün mütləq deyildir (məsələn, seçici birlikləri və blokları tərəfindən namizədlərin irəli sürülməsi və onların namizədlər siyahısına daxil edilməsi prosesində). Bu mənada seçki prosesinin aşkarlığı prinsipi daha çox seçki komissiyalarının fəaliyyətinə aid edilir (namizədlərin, onların vəkil edilmiş şəxslərinin, seçki bloklarının səlahiyyətli nümayəndələrinin qeydə alınması, seçki komissiyalarının iclasları və qərarları, seçkilərin maliyyələşdirilməsi və s. ilə bağlı məsələlər).

❖ **Seçki prosesi subyektlərinin bərabərliyi**. Bu prinsip seçkilərdə iştirak edən subyektlərin bərabər hüquqlara və vəzifələrə malik olmasını özündə ehtiva edir. Prosesin subyektləri, eyni statusa malik olsa da, təbii ki, seçicilərlə seçici birlikləri və seçki komissiyaları eyni statusa malik deyildir.

❖ **Seçki prosesinin sənədləşdirilməsi (rəsmiləşdirilməsi)**. Bu prinsip seçki prosesinin müxtəlif mərhələlər üzrə həyata keçirilən prosessual hərəkətlərin qanunda nəzərdə tutulmuş halda sənədləşdirilməsini tələb edir. Qanunvericilik burada bir sıra seçki hərəkətlərini nəzərdə tutur ki, onların sənədləşdirilməsi (məsələn, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqəsi, səsvermənin yekunlarına dair protokolların tərtib edilməsi və s.) məcburi xarakter daşıyır (3, 27-29).

Beləliklə, seçki prosesinin bəhs olunan əsas prinsipləri seçkilərin ayrı-ayrı mərhələləri üzrə ilə yanaşı müəyyən prinsiplər vardır ki, bunlar da özlüyündə az əhəmiyyət daşımır. Bu prinsipdə seçki dairələrinin bərabərliyi, seçkiqabağı təşviqatın bütün namizədlər üçün bərabər olması, səsvermənin yekunları və seçkilərin nəticələrinin müəyyən edilməsinin bərabər qaydalarını aid etmək olar.

**Seçkilərin təyin edilməsi**. Seçkilərin tarixinin təyin edilməsi rəsmi seçki kampaniyasının başlanması deməkdir. Səlahiyətli orqanın, yaxud vəzifəli şəxsin verdiyi aktdan sonra seçki prosesinin ilkin mərhələsi başlanır. Seçkilərin tarixinin müəyyən edilməsi dövlətlərin konstitusiyası və ya seçki qanunları ilə müəyyən edilir. Məsələn, Kosta-Rikada prezident seçkiləri dörd ildən bir fevralın birinci bazar günü keçirilir. Müddətlər başqa olsa da, analoji qayda Latviyada, Meksikada, ABŞ-da da müəyyən edilmişdir. Bəzi hallarda Konstitusiyada seçkilərin tarixi deyil, şərtləri müəyyən edilə bilər: seçkilər həmin orqanın və ya vəzifəli şəxsin səlahiyyət müddəti bitdikdən (məs. Bolqarıstan, Polşa və Çexiyada) və nümayəndəli orqan buraxıldıqdan sonra (məsələn, Böyük Britaniyada 20 gün sonra) keçirilir (2, 258). Lakin bu şərtlər olduqda da seçkilərin dəqiq tarixi barədə müvafiq akt qəbul olunur. Seçkilərin tarixi ya bir orqan (Belarusiyada prezident, İspaniyada kral) tərəfindən, ya da hansı orqanın və ya vəzifəli şəxsin seçiləcəyindən asılı olaraq müxtəlif orqanlar tərəfindən təyin edilir. Bolqarıstanda prezident seçkiləri parlament, parlament seçkiləri isə prezident tərəfindən təyin olunur. Rusiya Federasiyasında parlamentə (Dövlət Dumasına və Federasiya Şurasına) seçkilər prezident tərəfindən, prezident seçkiləri isə Federasiya Şurası tərəfindən təyin olunur .

Azərbaycan Respublikasında parlament seçkilərinin vaxtı Konstitusiyaya uy-

ğun olaraq prezident tərəfindən təyin olunur (beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir). Hazırda qüvvədə olan Seçki Məcəlləsinə görə Azərbaycan Respublikası Prezidentinin (Prezidentin Konstitusiya ilə müəyyən olunmuş səlahiyyət müddətinin başa çatdığı son ilin oktyabr ayının üçüncü həftəsinin çərşənbə günü) və bələdiyyə seçkilərinin vaxtını Mərkəzi Seçki Komissiyası təyin edir (1, 249).

**Seçki dairələri və seçki məntəqələrinin yaradılması.** Bu, seçki prosesinin ilkin və ən vacib mərhələlərindən biridir.

Seçki dairəsi seçki vahidlərinin ən geniş yayılmış növüdür. Çoxdərəcəli seçkilər zamanı aşağı nümayəndəli orqanlar və dolayı seçkilərdə seçki kollegiyaları belə vahidlər hesab olunur. Seçki dairəsi bir və ya bir neçə deputatın seçilməsi üçün müəyyən ərazinin və ya kollektivin seçicilərini birləşdirir. Adətən, seçki dairələrinin sayı və bölünməsi qaydası parlament seçkilərində qanunla (məs. Azərbaycanda və bir sıra MDB ölkələrində bütün səviyyəli seçkilərdə), bəzən bütün hökumət (İtaliyada) və ya xüsusi komissiya (Kanadada) tərəfindən, yerli özünüidarəetmə orqanlarına seçkilər üzrə isə bu orqanların öz aktları ilə müəyyən edilir.

Təmsilçiliyin xarakterindən asılı olaraq ərazi və istehsal seçki dairələri fərqləndirilir. Bu seçki dairələrindən birincisi seçiciləri yaşayış yeri, ikincisi isə iş yeri üzrə birləşdirir. İstehsal seçki dairələri vaxtı ilə Polşada və digər ölkələrdə yaradılsa da, hazırda belə seçki dairələr Çində mövcuddur. Lakin seçki dairələri həmişə ölkə və ya inzibati-ərazi vahidi üzrə ərazi seçki dairələri ilə yanaşı yaradılır. Bundan əlavə bir sıra ölkələrdə (Sinqapur və Ficidə) seçki dairələri hətta etnik əlamətlərə görə də yaradılır. Ərazi seçki dairələrinə isə ərazi prinsipi üzrə təşkil edilir. Seçki təcrübəsində ərazi seçki dairələrinin növünə (birmandatlı, çoxmandatlı və ümumdövlət (ümummilli) seçki dairəsi) təsadüf edilir (7, 32)

Birmandatlı seçki dairəsindən yanlız bir deputat seçilir və bir mandat verilir. Bu seçki dairəsindən majoritar seçki sistemi üzrə keçirilən seçkilərdə istifadə olunur və ona adətən nümayəndəli dövlət orqanlarına seçkilərdə daha çox yer verilir. Məsələn, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında hazırda qüvvədə olan Seçki Məcəlləsinə görə parlamentin 125 deputatı birmandatlı seçki dairəsi üzrə (bir dairədən bir deputat) seçilir (1, 223).

Çoxmandatlı seçki dairəsində isə birmandatlı seçki dairəsindən fərqli olaraq, çoxlu sayda deputat mandatı verilir və ondan əsasən proporsional seçki sistemində (bəzən majoritar seçki sistemi üzrə keçirilən seçkilərdə) istifadə edilir. Məsələn, Azərbaycanda bələdiyyə seçkilərində müvafiq seçki ərazisində çoxmandatlı seçki əraziləri yaradılır və mandatlar ümumi siyahı üzrə namizədlər arasında səslərin sayına görə bölüşdürlür.

Ümumdövlət (ümummilli) seçki dairəsindən əsasən prezident seçkilərində istifadə olunur. Məsələn, Azərbaycanda və bir sıra MDB ölkələrində prezident seçkilərində seçkilərin nəticələrinə dair sənədlər seçki ərazilərindən toplanaraq bir dairədə hesablanır və müəyyən olunur.

Seçki təcrübəsində bəzən parlament deputatlarının hamısının və ya bir hissəsinin ümumdövlət seçki dairəsi üzrə seçilməsi hallarına da rast gəlinir. Məsələn, Macarıstanda deputatların bir hissəsi ümumdövlət seçki dairəsi üzrə, bir hissəsi isə birmandatlı və ya çoxmandatlı seçki dairəsi üzrə seçilir.

Seçicilərin səs verdiyi və verilmiş səslərin ilkin hesablanmasının aparıldığı seçki məntəqələri müvafiq seçki dairəsinin ərazisində yaradılır və hər bir seçki dairəsi həmin ərazi üzrə çoxlu sayda məntəqləri birləşdirir. Seçki məntəqələri ən çoxu bir

neçə min seçicini əhatə edir. Məntəqələr üzrə seçicilərin minimum sayı 50 və daha az da ola bilər. Xəstəxanalarda, üzən gəmilərdə və dağlıq yerlərdə daha kiçik seçki məntəqələri yaradıla bilər.

Seçki təcrübəsində seçki orqanları adətən seçki komissiyaları adlansa da, bir sıra ölkələrdə onlar başqa cür də adlandırılır. Məsələn, Latın Amerikası ölkələrində bu qurumlar seçki tribunalları, seçki şuraları və ya mülki qeydiyyatçı adlanır. Seçki orqanları seçkilərin təşkili və keçirilməsi ilə məşğul olur, seçki qanunvericiliyinə riayət edilməsinə nəzarəti təmin edir və seçkilərin nəticələrini müəyyən edirlər. Bəzi ölkələrdə seçki komissiyalarının vəzifələri digər dövlət orqanlarına (məsələn, daxili işlər nazirliyinə və ya mərkəzi statistika idarəsinə) həvalə oluna bilər (12, s.534)

Əhatə etdikləri ərazidən asılı olaraq seçki komissiyalarının müxtəlif növləri – ümumdövlət (ümummilli), ərazi (dairə), məntəqə seçki komissiyaları) vardır.

Ümumdövlət (ümummilli) seçki komissiyası ölkənin bütün ərazisini əhatə edir və bir qayda olaraq ölkə üzrə seçkilərin təşkili və keçirilməsinə öz səlahiyyətləri daxilində ümumi rəhbərliyi həyata keçirir. Bu komissiya bir sıra ölkələrdə adətən mərkəzi və ya milli seçki komissiyaları adlandırılır. Federativ dövlətlərdə federasiya subyektlərinin öz komissiyaları da yaradılır.

Ərazi seçki komissiyaları müvafiq inzibati ərazi vahidlərində, dairə seçki komissiyaları isə seçkilərin keçirildiyi dairələrdə yaradılır və fəaliyyət göstərir. Onlar həmin ərazidə seçkilərin keçirilməsinin təşkili və həyata keçirilməsi ilə məşğul olurlar.

Məntəqə seçki komissiyaları isə müvafiq seçki dairələrinin ərazilərində yaradılır və fəaliyyət göstərir. Onlar səsverməni keçirir və seçkilərin nəticələrinə dair ilkin hesablamaları aparırlar. Bu komissiyalar qalibi müəyyən etmir, bunun üçün öz protokollarını yuxarı seçki komissiyalarına, seçkilərin xarakterindən asılı olaraq dairə və ya ərazi seçki komissiyalarına təqdim edirlər.

Bu komissiyalar eyni zamanda digər vəzifələri də (seçkilərin qanuniliyinə riayət edilməsinə nəzarət, seçki kampaniyasının təşkili və s.) həyata keçirirlər.

Seçki komissiyaları və başqa seçki orqanları daimi (İspaniyada) və müvəqqəti, yəni yanlız seçki dövrü üçün yaradılır. Adətən mərkəzi seçki komissiyaları, seçki tribunalları və mülki qeydiyyatçılar daimi əsasda fəaliyyət göstərir. Sosialist ölkələrində də mərkəzi seçki komissiyaları bəzən müvəqqəti və seçki dövrü üçün yaradılırdı. Onlar səsləri hesabladıqdan, seçkilərdə qalib gəlmiş şəxsləri müəyyən etdikdən və seçilmiş şəxslərə bu barədə müvafiq vəsiqələr verdikdən sonra öz işlərinə xitam verirlər. Dairə və məntəqə komissiyaları isə bir qayda olaraq müvəqqəti yaradılır.

Seçki təcrübəsinin təhlili göstərir ki, Mərkəzi seçki komissiyası prezidentin fərmanı, parlamentin və ya hökumətin qərarı ilə, çox az hallarda isə ali məhkəmə tərəfindən yaradılır. Məsələn, Meksikada, Almaniyada və bir çox başqa ölkələrdə bu komissiya seçkilərdə namizəd irəli sürən siyasi partiyaların nümayəndələrindən təşkil olunur. Lakin ona komissiyanın sədri vəzifəsini tutan dövlət məmuru başçılıq edir. Hindistanda, Pakistanda, Suriyada mərkəzi seçki komissiyası daimi dövlət məmurlarından ibarət olduğu halda, Azərbaycanda bu komissiyanın üzvləri Milli Məclis tərəfindən təyin edilir.

Bir çox ölkələrdə mərkəzi seçki komissiyası xüsusi orqan kimi yaradılmır, onun rolunu daxili işlər nazirliyi yerinə yetirir (Böyük Britaniya, İtaliya, Fransa və s.), ABŞ-da isə, ümumiyyətlə, mərkəzi seçki komissiyası yoxdur və onu heç bir bir orqan əvəz etmir. Seçkilərə, o cümlədən federal orqanlara dair məsələləri ştatlar həll edir.

Lakin seçki kampaniyasının bəzi cəhətlərini tənzim edən federal seçkilər haqqında 1972-ci il qanunu və başqa qanunlar qüvvədir (10, 54).

Mərkəzi seçki komissiyası namizədlərin qeydiyyata alınması, ayrılmış büdcə vəsaitlərinin bölüşdürülməsi, seçkilərin nəticələrinə yekun vurulması və s. ilə yanaşı, seçki kampaniyası zamanı öz səlahiyyətləri daxilində yerli seçki komissiyaları üçün normativ əhəmiyyətə malik təlimatlar, izahatlar və başqa aktlar qəbul edir.

Federativ dövlətlərdə federasiya subyektlərinin seçki komissiyaları, bir sıra ölkələrdə isə inzibati ərazi vahidlərinin ərazi komissiyalari daimi əsasda fəaliyyət göstərən məmurlardan ibarətdir.

Dairə seçki komissiyaları Avstriyada, Almaniyda və bəzi başqa ölkələrdə siyasi partiyaların nümayəndələrindən təşkil edilir, lakin onlara təyin olunan məmur rəhbərlik edir. İtaliyada və Fransada dairə seçki komissiyalarının tərkibinə siyasi partiyaların nümayəndələri deyil, yerli özünüidarəetmə orqanlarının deputatları, hakimlər və məmurlar daxil olurlar. Böyük Britaniyada dairə seçki komissiyaları ümumiyyətlə yaradılmır, onların rolunu şeriflər (ictimai asayişə görə məsuliyyət daşıyan vəzifəli şəxslər), habelə yerli özünüidarəetmə orqanlarına rəhbərlik edən seçkili şəhər merləri yerinə yetirirlər (3, 36) .

Məntəqə seçki komissiyaları da müxtəlif cür təşkil olunur. Onlar yerli özünüidarəetmə orqanlarının qulluqçularından və ya yerli nümayəndəli orqanların icraiyyə komitələri tərəfindən (sosialist ölkələrində) təşkil olunur. Anqlosakson hüquq sistemli ölkələrin çoxunda məntəqə seçki komissiyaları fəaliyyət göstərmir. Onların rolunu «məmur-qeydiyyatçılar» və sahə müfəttişləri yerinə yetirirlər. Həmin vəzifəli şəxslər texniki işlər üçün muzdla müvəqqəti əməkdaşlar tuta bilərlər. Lakin bütün səviyyələrdə bülletenlər verilərkən, səslər hesablanarkən və səslərin nəticələri müəyyən edilərkən namizədlərin, siyasi partiyaların və mətbuatın nümayəndələri iştirak edirlər (3, 37).

Ümumi qaydaya əsasən yanlız seçici siyahılarına daxil edilmiş şəxslər səs verə bilərlər. Səsvermə hüququ haqqında müvəqqəti vəsiqəyə malik olan şəxslər seçicilərin əlavə siyahısına daxil edilir və yanlız bundan sonra seçici bülleteni alırlar. Bəzi ölkələrdə (Suriyada) seçici siyahıları yoxdur və şəxsiyyət vəsiqəsini təqdim etmək kifayətdir. Səsvermədən sonra həmin vəsiqədə seçicinin səs verməsi qeyd edilir. Savadsızlığın yüksək olduğu və siyahıların tərtib olunmadığı ölkələrdə seçici özünün yuyulub getməyən boyaqla rənglənmiş baş barmağının izini qoyur.

Əksər ölkələrdə seçici siyahılarının tərtib edilməsi bələdiyyələrin səlahiyyətinə aiddir (Niderland, Polşa). Latın Amerikası ölkələrində bunun üçün xüsusi xidmətmilli və ya mülki qeydiyyatçı mövcuddur. İsraildə siyahıları daxili işlər nazirliyi, İsveçdə isə vergi idarəsi tərtib edir. Seçici siyahılarına yanlız seçki senzlərinə cavab verən şəxslər daxil edilə bilər. Bu senzlər hər bir ölkədə özünə məxsus xüsusiyyətlərə malikdir. Böyük Britaniyada seçici siyahılarını məmur-qeydiyyatçılar, ayrı-ayrı Latın Amerikası ölkələrində isə xüsusi təyin olunmuş komissiyalar tərtib edir (6, 29).

Siyahılar tərtib edilərkən, yoxlanılarkən və dəqiqləşdirilərkən məntəqə seçki komissiyaları, məmur-qeydiyyatçılar və digər orqanlar iki üsuldan (məcburi qeydiyyat, qeyri-məcburi qeydiyyat) istifadə edirlər

Qeydiyyatın məcburi olub-olmaması seçiciyə deyil, seçki komissiyasına və ya məmur qeydiyyatçıya aiddir. O, məcburi olmayan qeydiyyat zamanı seçicini avtomatik olaraq siyahıya daxil etmir, bunu yanlız seçicinin təşəbbüsü ilə həyata keçirir. Seçici siyahıya daxil olmaq istədikdə müvafiq ərizə ilə müraciət etməlidir (İspaniya, Meksika və ABŞ-da).

Məcburi qeydiyyat sisteminin tətbiq edildiyi ölkələrdə isə (Böyük Britaniya, İtaliya, Hindistan) seçici avtomatik olaraq siyahıya daxil edilir. Qeydiyyatçı seçki hüquqlarına malik olan bütün şəxsləri müəyyən etməyə və onları seçici siyahılarına daxil etməyə borcludur. Siyahıya daxil edilmiş şəxslərə xüsusi seçici kartoçkası verilir. Seçicilərin siyahıları ya daimi olur və onlara 10-12 ildən sonra yenidən baxılır, ya da dövri olur, yəni hər seçkilər üçün yenidən tərtib olunur. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda da seçicilərin siyahıya alınması məcburidir və siyahılar hər seçki üzrə yenidən tərtib edilir.

Siyahıya daxil edilmiş seçici başqa yerə getdikdə digər seçki məntəqəsində səs vermək üçün bəzi hallarda seçki hüququ haqqında vəsiqə ala bilər. Lakin bu yanlız eyni namizədələrin bütün ölkədə səsə qoyulduğu ümümdövlət seçkilərinin bəzi növlərində (prezidentin bilvasitə vətəndaşlar tərəfindən seçilməsi) mümkün olur. Belə hallarda çox vaxt seçicinin müvəqqəti olacağı yerdə namizədin səsə qoyulduğu səbəbindən ona daimi yaşayış yerində vaxtından əvvəl səs vermək hüququ verilir. Adətən, seçkilərə bir-iki həftə qalmış vaxtından əvvəl səsverməyə icazə verilir. Bu halda seçki komissiyası istifadə edilmiş bülletenin saxlandığı möhürlənmiş zərfi seçkilər günü açır.

Adətən namizədlər seçkilər elan edilməmişdən xeyli əvvəl məlum olur (bu xüsusən prezident seçkilərinə aiddir). Lakin namizədlərin rəsmi olaraq irəli sürülməsi və qeydiyyata alınması seçkilərin təyin edilməsi haqqında aktda və ya seçki qanununda göstərilmiş gündən başlayır. Namizəd qeydiyyata alındıqdan sonra ona seçkiqabağı təşviqat aparmağa icazə verilir və o, dövlətin maliyyə yardımını (əksər ölkələrdə) alır. Həmin vəzifə və ya deputat mandatı üçün nəzərdə tutulmuş tələblərə uyğun olaraq passiv seçki hüququna malik şəxslər namizəd kimi irəli sürülə bilərlər. Əlbəttə, digər şəxslərin namizədliyini də irəli sürmək olar, lakin bunun heç bir mənası yoxdur. Çünki belə şəxslərin namizədliyi qeydiyyata alınmır. Onlar seçkiqabağı təşviqat aparmaq hüququ əldə etmir və seçki bülletenlərinə daxil edilmirlər.

Namizədlər müxtəlif üsullarla irəli sürülə bilər:

- hər bir şəxs öz namizədliyini irəli sürərkən bu onu az sayda olsa da, seçicilər öz imzaları ilə müdafiə etməlidir. Bəzi ölkələrdə bu üsulla irəli sürülmüş namizədlərə partiya tərəfindən namizəd kimi irəli sürülmə haqqında normalar tərbiq edilir;

-namizədlər siyasi partiyalar tərəfindən irəli sürülə bilər. Namizədlərin siyasi partiyalar tərəfindən irəli sürülməsinin xüsusi halı Amerikada ilkin seçkilərdə müşahidə olunur. Siyasi partiyaların yığıncaqlarında gizli səsvermə yolu ilə namizədlərin irəli sürülməsi ilkin seçkilərin (praymerizm) mahiyyətini təşkil edir. Namizədlərin irəli sürülməsinin bu sistemindən Türkiyə Respublikasında da istifadə olunur;

- müxtəlif ictimai təşkilatlara namizədlər irəli sürmək hüququ verilir;

- namizədlər seçicilər və ya seçicilər qrupu tərəfindən də irəli sürülə bilər. Sonuncu halda qrupa daxil olan seçicilər bir-birlərindən ayrılıqda da çıxış edə bilərlər. Hindistan, Fransa və Yaponiyada 1, Kanadada, 1989-cu ildən isə Belçikada 2, Böyük Britaniyada 10, Niderlandda 25 seçici namizəd irəli sürə bilər və s. (7, 47) .

Bir çox ölkələrdə namizədlər irəli sürülməsinin sadalanan üsulları birləşdirilir. Namizəd həm siyasi partiya, həm seçicilər qrupu, həm də vətəndaşlar birliyi və s. tərəfindən irəli sürülə bilər. Partiyalar tərəfindən irəli sürülmə zamanı milli elan edilmiş partiyalara (İsveçdə ən azı iki dəfə dalbadal, Almaniyada isə 6 il seçkilərdə iştirak etmiş partiyalar milli partiyalar elan edilir) bəzi imtiyazlar verilir. Belə ki, onlar namizədlərin müdafiəsi üçün seçici imzaları təqdim etmirlər.

Bir sıra ölkələrdə qanun vahid namizədin səsə qoyulmasına icazə vermir. Belə halda seçkilər keçirilmir (Azərbaycanda prezident və parlament seçkilərində də bu qayda tətbiq edilir). Ona görə də, belə vəziyyətdə irəli sürülmə müddəti seçki komissiyası tərəfindən uzadıla bilər. Böyük Britaniyada, Hindistanda və digər ölkələrdə bir yerə bir namizədin irəli sürülməsi mümkündür, lakin bu halda həmin seçki dairəsi üzrə seçkilər keçirilmir. Namizədlərin qeydə alınması müddəti bitdikdən sonra irəli sürülmüş vahid namizəd səsverməsiz seçilmiş elan edilir. Hindistan parlamentinə seçkilərin bir çoxunda bir neçə nəfər bu yolla seçilmiş elan edilir. Nə qədər qəribə görünsə də, birpartiyalı sistemə malik Afrika ölkələrində bəzi prezidentlər bu üsulla seçilmişdir (2, 266).

Artıq qeyd edildiyi kimi, çox vaxt namizəd qeydə alınmaq üçün seçki girovu qoymalıdır. Bu zaman prezidentliyə namizədin qoyduğu pul vəsaiti parlamentə irəli sürülən namizədlərin qoyduğu girovun məbləğindən dəfələrlə artıq olur. Əgər namizəd milli partiyalardan irəli sürülürsə, girovun məbləği az ola bilər. Prezidentliyə namizədin irəli sürülməsinin digər xüsusiyyətləri də vardır. Namizəd yanlız müəyyən subyektlər tərəfindən və parlament üzvlüyünə namizədlə müqayisədə daha mürəkkəb qaydada irəli sürülür. Fransada prezidentin namizədliyi yalnız 500 vətəndaş tərəfindən irəli sürülə bilər. Lakin həmin vətəndaşlar dövlətdə müəyyən vəzifə tutmalı (parlament üzvləri, yerli nümayəndəli orqanların müəyyən pilləsinin üzvləri və s.), həm də onlar müəyyən sayda iri inzibati-ərazi vahidlərini təmsil etməlidirlər (təqribən onların ümumi sayının üçdə birini). AFR-də prezident vəzifəsinə namizəd yalnız Federal məclis üzvləri tərəfindən irəli sürülür. Misirdə həmin vəzifəyə namizəd parlament tərəfindən irəli sürülür və onun üzvlərinin azı 2/3-si tərəfindən bəyənildəkdən sonra seçicilərin səsverməsinə çıxarılır (6, 34).

Seçkilərin ədalətli və şəffaf keçirilməsində seçici fəallığının mühüm əhəmiyyət kəsb edir. Seçici fəallığının yüksəldilməsində isə seçkiqabağı təbliğatın xüsusi rolu vardır. Seçki təbliğatının məqsədi namizəd haqqında məlumatları seçicilərə çatdırmaqdan, onun imicinin yaradılmasından, namizədin opponentlərindən fərqli olaraq problemləri daha uğurla həll etmək imkanına malik olmasına seçiciləri inandırmaqdan, namizədin rəqiblərindən üstünlüklərini sübut etməkdən, müdafiəyə hazır olmaqdan və s. ibarətdir.

Seçki təbliğatının səmərəli təşkili üçün müəyyən amillərə (mənəvi dəyərlər, aktual problemlər, siyasi mövqe, kampaniyanın leytmotivi, əsas ideyası, şüarlar və çağırışlar) xüsusi fikir verilməlidir:

Beynəlxalq aləmdə seçki kampaniyasının 8 modeli mövcuddur. Bunlar aşağıdakılardır:

- **Bazar modeli**. Kampaniyanın bu növü yanlız maliyyə vəsaitinə əsaslanır və namizədin qələbəsi üçün müəyyən işləri görmək məqsədilə yalnız pulun sərf olunmasını nəzərdə tutur.
- **İnzibati model**. Hakimiyyətdə olanların öz vəzifələrindən sui-istifadə etməklə, özlərindən vəzifə asılılığında olan şəxslərdən, texniki və hətta maliyyə vəsaitlərindən istifadə etməklə apardıqları seçki kampaniyası bu cür adlanır.
- **Partiya modeli**. Partiya kampaniyanı öz qüvvəsi ilə aparır.
- **İmic modeli**. Namizədin müsbət keyfiyyətlərini önə çəkməklə və beynəlxalq seçki təcrübəsini öyrənməklə onun hörmətini seçiciləri arasında artırmağa xidmət edir.
- **Kriminal model**. Cinayətkar aləmlə əlaqəsi olan, korrupsiyaya qurşanmış

şəxslər bu modeldən istifadə etməklə parlamentə düşmək istəyirlər. Məsələn, Rusiyada Uralmaş seçki qalmaqalı buna misal ola bilər. Rəqibinin tərəfdarlarının döydürülməsi, menecerinin öldürülməsi, plakatlarının cırılması, vitrinlərinin sındırılması və s. buna aiddir. Təqaüdçülərə ərzaq paylayıb, seçilmədikdiyi təqdirdə geri alınması halları da bu növ kampaniya üçün səciyyəvidir.

➢ **Kompromatlar modeli**. Bu modeldən əksər ölkələrdə rəqibi gözdən salmaq üçün istifadə olunur. Xüsusilə postsovet respublikalarında bu model geniş yayılıb. Bəzən inkişaf etmiş ölkələrdə bu modeldən imtina edilir. Məsələn, ABŞ-da Niksonun prezident seçkilərində Demokratlar təyyarədə bülletenləri dəyişdirsələr də, respublikaçılar ölkənin sabitliyi naminə bu məsələnin tədqiqinə icazə verməmişlər.

➢ **Kompleks model**. Bu model əvvəlki 6 modeli özündə ehtiva edir.

➢ **Xaos modeli**. Seçki kampaniyasının bu növü sovet rejiminin süqutu ərəfəsində olub və bu modeldən indi əksər ölkələrdə istifadə olunmur. Məsələn, bu modelə görə o illərdə namizədi yanlız bir keyfiyyətinə görə seçirdilər ki, bu da yanlız keçid dövrü üçün səciyyəvi idi (7, 129).

Azərbaycan Respublikasında Milli Məclisə seçkilər yalnız majoritar sistem üzrə keçirilsə də, seçki kampaniyasının partiya modelindən də geniş istifadə olunur. Çünki seçkilərdə müstəqil namizədlərlə yanaşı çoxlu sayda partiya namizədləri də iştirak edir.

Adətən namizədlər və ya onların ideyaları arasındakı rəqabət ilkin seçkilər zamanı meydana çıxır, yəni aparıcı partiyalar öz namizədlərini irəli sürərək seçki kampaniyasına qoşulur və ikinci dərəcəli partiyaların namizədlərinə rəqabətə qoşulmaq üçün çox az şans verirlər. Dünyanın bütün inkişaf etmiş ölkələrində seçki kampaniyaları mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə seçki kampaniyalarının strategiya və taktikası hazırlanır, onun başlıca məqsəd və vəzifəsi müəyyən edilir. Kampaniyanın mühüm vəzifələrindən biri də ictimaiyyətə aşağıdakıları çatdırmaqdan ibarətdir:

- ✓ namizədliyi irəli sürülən şəxs kimdir? Onun ictimai və siyasi mövqeyi hansı ideyalarla bağlıdır?
- ✓ onun opponenti kimdir?
- ✓ o, ictimai polemikaya girəcəyi halda hansı problemlərə toxunacaq?
- ✓ onun seçiciləri kimdir? Onun ideyaları və apardığı seçkiqabağı kampaniya elektoratın ürəyincədirmi?

Strategiya üçün zəruri olan yuxarıdakı tələblər bir daha göstərir ki, seçki kampaniyasının dolğun planı, güclü göstərici bazası və ya bankı yaradılmalıdır. Belə ki, strategiyanın uğuru aparılacaq tədqiqatlardan xeyli asılıdır. Seçki kampaniyalarının keçirilməsi üçün göstəricilər bankı yaratmaq məqsədi ilə tədqiqatlar zamanı obyektiv və subyektiv xarakterli bir çox təhlil vasitələrindən istifadə olunur:

- ❖ ictimai rəyin tədqiqi, nəticələrin təhlili;
- ❖ vahid dəyişkənli demoqrafik təhlil;
- ❖ çox dəyişkənli geodemoqrafik (klaster) analiz;
- ❖ reprezentativ qrupların müsahibə verməsi;
- ❖ elektron vasitələrlə təhlil;
- ❖ ictimai rəyin monitorinqi;
- ❖ səthi modelləşdirmə (topologiya);
- ❖ qəza nəzəriyyəsi;
- ❖ məkanın modelləşdirilməsi;
- ❖ regionun mühüm problemlərinin təhlili;

- opponentin kampaniyasının təhlili

**İctimai rəyin öyrənilməsinin** əsas məqsədi sorğular keçirilən dövrdə insanların əsas fikir və mülahizələrini müəyyənləşdirməkdir. Sorğuların aparılması həm sosioloji nöqteyi-nəzərdən, həm də siyasi kampaniyanın keçirilməsinin tətbiqi nöqteyi-nəzərindən səmərəlidir. Siyasi kampaniyanın tətbiqi nöqteyi-nəzərindən kampaniya keçirilən müddətdə siyasi partiyaların KİV-ə qarşı gözlənilən reaksiyalarını aydınlaşdırmaq mümkün olur. Siyasi kampaniyanı keçirənlər elə suallardan istifadə etməlidirlər ki, bu suallar bir növ seçicini fikirlərini açıq ifadə etməyə, danışmağa sövq etsin.

**Keçmiş seçkilərin nəticələrinin təhlili** mühüm əhəmiyyət kəsb edir. Seçkilərin nəticəsinə görə çox səs toplayan partiyanın qalib gəlmə səbəblərinə diqqət yetirməklə gələcək seçkilər üçün əvvəlcədən əlverişli şərait yaratmaq mümkündür. Aparılan təhlilər nəticəsində tədqiqatçılar kimlərin seçki günü səs verəcəyini, kimlərin isə verməyəcəyini müəyyən edirlər. Beləliklə, əsas diqqət ikincilərə yönəldilir, çünki məhz onların potensial seçici olması əsas məqsəddir.

**Vahid dəyişkənli demoqrafik təhlil** dedikdə elektoral regionda yaşayan seçicilərin demoqrafik tipologiyası nəzərdə tutulur. Cins, yaş, irqi mənsubiyyət, gəlir səviyyəsi, təhsil kimi bəzi demoqrafik göstəricilər əksər hallarda seçicilər tərəfindən qəbul edilən qərarlara öz təsirini göstərir.

**Çoxdəyişkənli geodemoqrafik (klaster) təhlil** demoqrafik tədqiqatın sonrakı mərhələsidir. Faktorları təhlil etməklə demoqrafik dəyişkənlərin reqressiyasını (azalmasını) həyata keçirib, onların nəticələrini klasterlərdə-xanalarda qruplaşdırıb çoxsaylı seçicilərin tipini müəyyənləşdirmək olar. Məsələn, ABŞ-da öz həyat tərzinə görə 40-a qədər təsnifatı verilmiş kateqoriyaya aid edilən seçicilər mövcuddur. Məhz elmi tədqiqatlardan istifadə etməklə siyasi tipologiyanı vermək olar. Bu tipologiyanın köməyi ilə həmin regionda yaşayan insanlara səciyyəvi siyasi şüarlarla müraciət olunur. Bu ideyaları həm televiziya, həm poçt, həm də şəxsi ünsiyyət vasitəsilə reallaşdırmaq mümkündür.

**Reprezentativ qruplarından müsahibə alınması** seçici duyumunun subyektiv şəkildə müəyyən edilməsinə şərait yaradır. Adətən məqsədyönlü seçmə prosesindən sonra 10-12 nəfər seçici təcrübəli aparıcıların, psixoloqların rəhbərliyi altında siyasətə və keçirilən kampaniyaya aid aktual mövzuları, hadisələri müzakirə etməyə başlayır. Bü mükarirələr adətən video-kassetlərə yazılır və sonra qrup dinamikası, qrup mütəxəssisləri, eləcə də kampaniya strategiyası üzrə mütəxəssislər tərəfindən tədqiq edilir. Qrup müsahibəsinin iştirakçıları çox ciddi seçim qaydalarına məruz qalırlar. Bu proseduradan ictimai rəy sorğusunu keçirərkən də istifadə olunur. Ümummilli səviyyədə seçim aparmaq mümkün olmadığından 10-12 nəfərdən ibarət qruplarla kifayətlənmək lazım gəlir. Elə buna görə də, adətən reprezentativ qruplara ya kiçik regionların sakinlərini, ya da ki, bu və ya digər demoqrafik kateqoriyaları cəlb edirlər.

Yuxarıda göstərilən tərkibli **reprezentativ qruplardan elektron qurğuları vasitəsi ilə musahibə** alınarkən hər bir iştirakçı mərkəzi kompyuterə qoşulmuş xüsusi elektron qurğuları vasitəsilə rəyini, eləcə də həyəcan intensivliyini qeydiyyatdan keçirir. Kompyuter qrupdakı fikir çoxluğunu saf-çürük edərək ümumi fikir, əhval-ruhiyyəni ekranda əks etdirir. Bu cür texnika daha çox telerekramların və digər adiovizual materialların verilməsi zamanı lazım olur.

**İctimai rəyin monitorinqi** bir dəfəlik sorğunu 2-3 gün ərzində yayır. Hər gün 200-300 nəfərdən alınan müsahibələr 3 günlük bloklarda birləşdirilir, qrafik şəkildə

təsvir edilir. Bu isə kampaniyaya rəhbərlik edən adama kampaniyanın strategiyasındakı dəyişikliklərlə əlaqədar insanların əhval-ruhiyyəsinin necə dəyişdiyini öyrənməyə imkan verir. Gündəlik monitoriq kampaniya rəhbərlərinə, məsləhətçilərə, partiya liderlərinə, eləcə də namizədlərə kampaniya ərzində ictimai rəydə baş verən bütün dəyişikliklərə diqqət yetirmək imkanı verir. Bununla da hadisələrin inkişafını onların diqqət mərkəzində saxlamış olur. Nəticədə kampaniyanın strategiyasını inkişaf etdirmək, onda səmərəli dəyişikliklər etmək imkanı yaranır.

**Səthi modelləşdirmə** monitorinqin ikiölçülü konsepsiyasını üçölçülü konstruktora çevirir. Siyasi kampaniyanın gedişində toxunulan bütün problemlərə seçicilərin şəxsi mövqelərinin yaranması üçün əhəmiyyətli olan problemlər kimi baxırlar. Nəticədə necə və kimə səs verəcəkləri barədə düşüncələrini möhkəmləndirirlər. Məhz səsvermə və seçimlə əlaqədar mərhələ üçüncü ölçülü konstruktor adlanır. Alınmış göstəricilər kampaniya rəhbərini təkcə seçicilərin düşüncələri barəsindəki informasiya ilə deyil, eləcə də kampaniya ərzində seçicilər üçün əhəmiyyət kəsb edən, onları düşündürən problemlər barədə informasiya ilə təmin edir.

Fransız riyaziyatçısı Rene Tonun təklif etdiyi qəza nəzəriyyəsi modelinə görə seçicilərin öz seçimlərini həyata keçirilməsinin təhlili yararlı və ya əksinə ola bilər. Bəzi seçicilər seçki kampaniyasının ilk günündən sonuncu gününədək neytral qala bilərlər və belə bir fikir yanar bilər ki, bu seçici seçkidə iştirak etməyəcək. Lakin gözlənilmədən seçici son anda seçki məntəqəsinə gələrək bülleteni doldura bilər. Birincilərdən fərqli olaraq ikinici kateqoriyalı seçicilər seçki kampaniyasına bu prosesin gedişində qoşula bilər və seçkilərə yalnız bir neçə həftə qalmış kimə səs verəcəyi barədə qərara gələ bilərlər. Seçicilərin davranışındakı bu cür fərqlər qəza modellərinin təhlilinin bəzi xüsusiyyətləri liə oxşarlıq təşkil edir (8, 198-201) .

**Məkan modelləşdirilməsi** səthi modelləşdirmə modeli ilə oxşardır.

Keçirilən kampaniyanın ünvanı və məzmunu aydın olduqdan sonra partiyalar və ya namizədlər faktların, dəlillərin, göstəricilərin əldə edilməsi ilə məşğul olurlar. Burada söhbət verbal, rəqəm göstəricilərində gedir. Bunların köməyi ilə namizədlər və ya partiyalar ictimai-siyasi problemləri öz seçkiqabağı platforma və proqramlarına daxil edir və onların məzmununu zənginləşdirir, öz seçiciləri qarşısında müraciətlə çıxış edirlər. Bu halda onların qarşısında müəyyən suallar (hansı seçicilərin diqqətini daha çox cəlb etmək lazımdır? Çoxlu sayda tərəfdarı necə qazanmaq?) durur.

Siyasi mübarizənin hər bir subyekti həm hakimiyyət mövqeyinə yol tapmaq, həm də seçicilərə və digər siyasi subyektlərə özlərinin varlığını xatırlatmaq üçün seçkilərdə iştirak etməlidirlər. Seçki kampanyasının keçirilməsinin üsul və metodlarının hazırlanması, həmçinin müəyyən partiya, yaxud siyasətçinin konkret formalaşdırılması, eyni vaxtda həyata keçirilir. Seçki kampaniyasının strategiyası əsasən real situasiyaya uyğun əldə olan resurslarla kampaniyanın özünün miqyası və bundan doğan digər şərtlərlə müəyyənləşir Seçkiqabağı mübarizə müəyyən qanunauyğunluqlara əsaslanmalıdır. “Strategiya nədir?” sualına belə cavab vermək olar: strategiya-müvəffiqiyyətin və məğlubiyyətin açarıdır. Buna görə də, seçkiqabağı strategiya bu mübarizənin miqyasından asılıdır və real şərait əsasında qurulmalıdır.

Hərtərəfli düşünülmüş çevik strategiyanın olmaması və öz hərəkətlərini rəqibin gedişlərinə əsasən dəyişdirməsi zərərlidir və mütləq uğursuzluğa gətirib çxaracaqdır. İmprovizasiya ancaq o zaman yaxşı nəticə verir ki, onun ayrı-ayrı elementləri gücləndirilsin və zənginləşdirimiş olsun.

Seçki kampaniyasının strategiyasını müəyyənləşdirən bəzi qaydalara əməl

etmək lazımdır:

- məqsəd dəqiq, aydın və real olmalıdır;
- mövcud resursları və potensial ehtiyatları maksimum səfərbər etmək;
- partiya, yaxud namizəd üçün müəyyən olunmuş konyuktura və ümumilikdə şəraitə uyğunlaşmaq, həmçinin seçki kampaniyasının gedişində onların dəyişməsi ehtimalıqı real qiymətləndirmək (3, 4).

Məqsədin müəyyənləşməsi seçki strategiyasının müəyyən olunması üçün xüsusi əhəmiyyətə malikdir. Hər şeydən əvvəl müəyyənləşdirmək lazımdır ki, namizədə qələbə lazımdımı? Belə ki, çox vaxt insanlar seçki mübarizəsinə tamam başqa məqsədlərlə qoşulurlar (seçki kampaniyasında iştirak etmək; həm də müəyyən və tam qələbə əldə etmək). Məsələn, Rusiyada ənənəvi olaraq belə hesab edilir ki, qubernator vəzifəsinə namizəd özünü prezident kampaniyasında, Dövlət Dumasına mandat almaq üçün isə namizəd özünü qubernator kampaniyasında sınamalıdır.

Çox vaxt kifayət nüfuza malik olmayan siyasi partiyalar və siyasətçilər üçün məqsəd məhz seçki kampaniyasında iştirak etmək ola bilər. Lakin siyasi reytinq üçün tam süquta yol verməmək şərti ilə məğlub olmaq olar. Məlum oduğu kimi, RF-də prezident seçkisi Aleksandr Lebedə mühüm əyalətlərdən birinin qubernatoruna çevrilməsinə kömək etdi (9, 43).

Seçkilər müxtəlif formalarda (müstəqil, digər partiyalarla vahid blok çərçivəsində kiçik tərəf-müqabil kimi, öz köməyinə görə gələcəkdə siyasi dividend əldə etmək ümidi ilə vahid bloka girmədən digər partiyaları dəstəkləmək; müstəqil və ya digər partiyalarla birlikdə seçkiləri baykot etmək) həyata keçirilir.

Siyasi partiyalar və ya seçki birlikləri seçkilərdə iştirak etmək üçün müxtəlif amillərdən istifadə edə bilərlər. Belə ki, parlamentdə təmsilçiləri olmayan yeni və kiçik partiyalar üçün seçki səddini aşmaq və heç olmasa, bir neçə namizədini keçirmək də nailiyyət hesab oluna bilər. Şəraitdən asılı olaraq partiya və siyasi birlik üçün nümayəndəliyinin genişləndirilməsi, yaxud öz namizədinin yığdığı səslərin bir qədər çoxalması kiçik qələbədir. Həmçinin kampaniya partiya üçün əlverişsiz şəraitdə keçirsə, əvvəlki mövqeyi qoruyub saxlamaq da müəyyən dərəcədə qələbə sayıla bilər. Seçkiqabağı mübarizənin digər iştirakçılarının yığdıqları səslə miqayisədə daha yaxşı nəticələr əldə etmək və müəyyən qədər səslərin sayını artırmaq isə nisbi qələbədir. Nümayəndəli orqanda yerlərin yarıdan çoxunu tutmaq, öz namizədinin prezident seçilməsi və ya inzibati əraziyə rəhbərliyi təmin edən 2/3 deputat mandatının əldə edilməsi seçki kampaniyasında mütləq qələbə hesab olunur.

Seçki kampaniyasının strategiyasını formalaşdırarkən bütün suallara cavab verilməlidir. Seçicilərin kim olduğunu bildikdən sonra elə inandırıcı dəlillər hazırlanmalıdır ki, seçicilər namizədə niyə səs verəcəklərini başa düşsünlər. Namizəd müəyyənləşdirməlidir ki, onunla seçiciləri arasında nə kimi ümumilik var, onlar nəyə inanırlar və nəyə nail olmaq istəyirlər və onlara öz məqsədlərini həyata keçirməkdə nə kimi köməklik edə bilər. Seçicilərin sosial-demoqrafik, professional, etnik, ərazi, psixoloji və digər cəhətlərinə görə fərqləndirilməsi ilə yanaşı, öz namizədinə səs verəcək məqsədyönlü qrupların seçilib ayrılması və təbliğat maşınının onlara doğru yönəldilməsi strateji məqsədə çatmaqda vacibdir (11, 356). Konkret məqsədyönümlü qrupun müəyyənləşdirilməsinin 2 vacib (seçki konsepsiyasının dağınıqlığına yol verməmək və kampanyianın vəsaitinə qənaət etmək) səbəbi vardır. Duzgün istiqamətlənməmiş kampaniya hətta əlverişli seçkiqabağı situasiyada belə iflasa uğraya bilər.

Elektoratın strukturunun təhlili yaş, məşğuliyyət, təhsil, milliyyət və s. ilə

bağlı məlumatları əldə etməyə imkan verir.

Seçki kampaniyalarının gedişində atılan taktiki addımlar bir qayda olaraq kampaniyanın strateji mərhələləri ilə bilavasitə əlaqədar olur. Tədqiqatçılar bu mərhələlərə aşağıdakıları aid edirlər:

❖ **Kampaniya öncəsi** (seçkilərə 6-12 ay qalmış);

- ictimai rəyin mövcud durumu ilə əlaqəli informasiyanın toplanması və «seçki bazarının» öyrənilməsi;

-tanınmış siyasi xadim və liderlərlə danışıqların aparılması, cəmiyyətin müxtəlif dairələrindən, gözlənilən dəstəyin mümkünlüyü ehtimalının araşdırılması;

- özəl siyasi simaya malik olmaq və seçki kampaniyasının potensial öhcül qüvvəsi kimi özünü təsdiq etmək:

-məqsədlərin və «seçki hədəfləri»nin müəyyənləşdirilməsi;

-seçkiqabağı proqramın hazırlanması;

-fəallar üçün təlimatların hazırlanması və komanda üzvlərinin təlimi.

❖ **Namizədin irəli sürülməsi və təşkilati tədbirlər** (seçkilərə 4-6 ay qalmış)

-yerlərdə dəstək qruplarının yaradılması, dairələrdə fəalların yığıncaqlarının keçirilməsi;

- namizədlərin qeydiyyatı;

- seçki kampaniyasında namizədlərin menecerlərinin təlimatlandırılması;

- namizədin dosyesinin və digər analitik məlumatların hazırlanması;

- namizədin komandasının yaradılması.

❖ **Seçki kampaniyasının bilavasitə başlanması** (seçkilərə 3 ay qalmış və seçki günü)

-namizədin ştabının, mətbuat mərkəzinin yaradılması;

- namizədə dəstək məqsədilə maliyyə vəsaitlərinin toplanılması;

-konkret qruplara rəğmən təşviqat kampaniyasının başlanması («hədəflərə atəş»);

-siyasi rəqiblərə yönəlmiş əks-təşviqatın başlanılması;

-liderin, təbliğatçıların seçicilərlə görüşləri;

-«qapıdan-qapıya» və digər iş formalarının seçicilər arasında tətbiqi;

-səsvermə günü müşahidəçi kimi iştirak edəcək şəxslərin təlimatlandırılması.

Beləliklə, seçki kampaniyasının strategiyası siyasi mübarizənin bu və digər iştirakçının malik olduğu imkanlarla müəyyənləşən və qələbəni təmin edən amillərdən ibarətdir.

Seçkiqabağı mübarizə taktikası ölkənin mövcud şəraitindən seçkilərin ictimai həyat üçün, partiya və konkret namizəd üçün əhəmiyyəti ilə müəyyən olunur və ümumi strateji xəttə tabe edilir. Taktika real həyatın mövcud və dəyişən şərtləri ilə sıx əlaqəlidir (9, 34).

Bizcə, bəzi taktiki məqamlara diqqət yetirilməsi faydalı ola bilər:

- ✓ seçki kampaniyasının hər bir mərhələsində əsas məqamı təyin etmək və səyləri həmin istiqamət yönəltmək;
- ✓ kifayət qədər əsas olduqda özünə inamı nümayiş etdirmək;
- ✓ gözlənilməz və rəqibi çaşdıran qərarlar qəbul etmək;
- ✓ seçkiqabağı mübarizənin hər bir məqamında müəyyən üstünlük əldə etməyə çalışmaq və hətta gözlənilməz vəziyyətdən maksimum faydalanmaq.

Taktiki mülahizələrdən çıxış edərək bu və ya digər namizəd, yaxud partiya lazım gəlsə, öz mövqeyini onunla rəqabətdə olan siyasi qüvvələrin mövqeyi ilə əlaqə-

ləndirməyi və hətta dolayısı ilə onlara dəstək verməyi bacarmalıdır. ABŞ-da prezident kürsüsü uğrunda mübarizənin gedişində Ronald Reyqan komandasının müstəqil namizəd Andersona verdiyi dəstək buna nümunə ola bilər. Hesablamalara görə bu, Cimmi Karterin səslərinin bir hissəsinin alınmasına və onun məğlubiyyətinə səbəb olmalı idi. Doğrudan da, belə oldu. Corc Buşla Bill Klintonun ABŞ prezident kürsüsü uğrunda mübarizəsində isə əks vəziyyət alındı. Bir çox şərhçilərin fikrincə, məhz müstəqil namizəd Ross Perro Corc Buşun səslərini götürdü və nəticədə Bill Klinton qələbə qazandı.

Bəzən taktiki mülahizələrdən çıxış edərək bir partiya, yaxud blokdan iki namizəd irəli sürülür ki, lazımi məqamda ehtiyat idddiaçı əsas namizədin xeyrinə öz namizədliyini geri götürsün. Belə bir hal Rusiyada keçirilən prezident seçkilərində baş verdi. RFKP-dən ikinci iddiaçı Aman Tuleyev səsverməyə bir neçə gün qalmış öz namizədliyini geri götürdü və seçicilərini Gennadi Zyüqanova səs verməyə çağırdı (8, 203).

Dünya təcrübəsində əks mövqelərdə olan siyasi qüvvələrin vahid məsələdə seçki prosesinin ədalətli və demokratikliyini təmin etmək və hakimiyyətin seçkilərin nəticələrini saxtalaşlaşdırılmasını neytrallaşdırılmaq məsələsində birləşmələri nadir hadisə deyil. Buna misal kimi 1996-cı ildə Ermənistanda keçirilən seçkiləri göstərmək olar.

Seçki kampaniyası çərçivəsində istifadə olunan taktiki üsulların müxtəlifliyi onların əlaqələndirilməsini tələb edir. Məhz buna görə də, seçki kampaniyasının taktikası həmişə planlaşdırılır, yəni namizədin və müxtəlif fəaliyyət istiqamətlərinə cavabdeh olan komanda üzvlərinin plan-qrafiki tərtib olunur.

Seçki texnologiyaları (seçki kampaniyasının təşkili və keçirilməsi üsulları), müəyyən siyasi məqsədlərə çatmaq üçün namizədin və onun komandasının fəaliyyətinin müxtəlif istiqamətlərini özündə ehtiva edir. Bu fəaliyyətin səmərəliliyi iki şərtdən asılıdır: seçki kampaniyası təşəbbüskarları dairədə vəziyyəti nə dərəcədə hərtərəfli təhlil etmiş və situasiyaya uyğun seçki kampaniyasının strategiyasını necə qurmuşlar? Nə dərəcədə onlar bu işə yaradıcı yanaşıblar, əhalinin maraq və istəklərinə cavab verən orijinal bir proqram təklif edə biliblər?

Hər bir seçki kampaniyası şəraitdən və çoxsaylı amillərdən asılı olaraq özünə məxsus xüsusiyyətlərə malikdir. Bununla belə, seçkinin planlaşdırılması və həyata keçirilməsinin bəzi ümumi prinsipləri mövcuddur və qələbənin təmin olunmasında onlardan situasiyaya uyğun istifadə etməyin böyük rolu var.

Seçki kampaniyasının planı strateji məqsədlərin əldə olunmasına maksimum yol verilə biləcək dəyişkənliklə davamlığı və ardıcılığı özünə birləşdirməlidir ki, situasiyaya uyğun operativ reaksiya verə bilsin. Təcrübə göstərir ki, seçki kampaniyası planının bir neçə modifikasiyada olması daha yaxşıdır. Planlaşdırılmış tədbirlərin ardıcıllığı namizədlərin «keyfiyyətlərinin açılması»nı elə təmin etməlidir ki, məhz səsvermə ərəfəsində onlar populyarlaşsınlar və diqqət mərkəzində olsunlar (4, 212).

Seçki kampaniyasının mühüm mərhələlərindən biri də səsvermə mərhələsidir. Əhalinin siyasi iradəsini üzə çıxartmaqda, hakimiyyət strukturlarına öz təmsilçilərini seçməkdə səsvermə əvəzsiz rol oynayır.

Dünya praktikasında əhalinin səsvermədə iştirakına iki baxış formalaşıb. Bunlardan birinə görə səsvermədə iştirak etmək seçicilərin hüququ, digərinə görə isə vəzifəsi kimi nəzərdən keçirilir.

Bir sıra ölkələrdə seçicilərin bir hissəsi səsvermə üçün xüsusi proqramlaşdırıl-

mış seçki maşınlarından istifadə edir. Məsələn, Niderlandda, ABŞ-ın əksər ştatlarının və Hindistanda seçki dairələrinin təqribən beşdə birində səsvermə prosesində belə üsuldan istifadə edilir. Bu halda seçki kabinəsi, əgər belə istifadə etmək mümkündürsə, telefon budkasına oxşayır. Seçici səs vermək üçün ora daxil olur, pərdəni örtür, linglərin yerini dəyişir və düymələri basır. Maşın elə quraşdırılmışdır ki, onunla iki dəfə səs vermək mümkün deyildir. Son illərdə bəzi ölkələrdə, o cümlədən Brazilyada səsvermə üçün perfokartlı elektron hesablama tipli maşınlar tətbiq edilir. Maşın səsvermənin nəticəsini hesablayır və onu dərhal yekunlaşdırıcı mərkəzə verir (10, 198).

Dünya praktikasında səsvermənin keçirilməsi ilə bağlı daha maraqlı hallara da təsadüf edilir. Məsələn, savadsızların sayı çox olan ölkələrdə seçki bülletenlərinin yerinə namizədlərin portretləri yapışdırılmış seçki qutularından istifadə edilir. Seçici komissiyasının bülleten əvəzinə ona verdiyi kürə və jetonu rəğbət bəslədiyi namizədin portireti yapışdırılmış qutuya salır. Afrikanın kiçik Svazilend krallığında isə səsvermə daha maraqlıdır. Belə ki, bu krallıqda kəndli seçicilər kənddə «ayaqları ilə səs verirlər». Onlar rəğbət bəslədikləri namizədin dayandığı qapıdan keçməklə müvafiq namizədə səs vermiş hesab olunurlar. Nəhayət Suriyada nə namizədlərin familiyasının üstündən xətt çəkilir, nə də kvadratda qeyd edirlir. Seçicilər sonda iki siyahıdan lazımi soyadı seçərək bülletenə yazırlar (3, 47)

Adətən, demokratik ölkələrdə seçicilərin 50%-dən bir az çoxu, bəzən isə 60-65%-i, lakin çox vaxt yarıdan və hətta dörddə birindən azı (xüsusən postsosialist ölkələrində) səsvermədə iştirak edir. Parlament seçkiləri ilə müqayisədə prezident seçkilərində daha artıq fəallıq nümayiş etdirilir. Ən aşağı fəallıq isə, bir qayda olaraq, yerli özünüidarəetmə orqanlarına seçkilərdə müşahidə olunur.

Seçicilərin seçkilərdə iştirak etməkdən kütləvi şəkildə boyun qaçırması absenteizm adlanır. Absenteizmin (ingiliscə «İştirak etməmək») səviyyəsinə müxtəlif səbəblər, lakin hər şeydən əvvəl siyasi və iqtisadi amillər təsir göstərir. Belə davranış qeyri-siyasi və siyasi ola bilər. Birinci halda seçici seçkilərə ona görə getmir ki, ona xəstəlik, başqa yerdə olma, seçki məntəqəsinin uzaqlığı və s. kimi səbəblər mane olur, yaxud da seçkilər onu, ümumiyyətlə maraqlandırmır. İkinci halda isə seçicinin seçkilərdə iştirak etməməsi siyasi etirazı ifadə edə bilər. Bunun səbəbləri müxtəlif ola bilər: irəli sürülən namizədlər, onların mövqeyi seçicini qane etmir, seçici hesab edir ki, hazırkı şəraitdə keçirilən seçkilərin nəticələri obyektiv ola bilməz və s (6, 125).

Absenteizmin yüksək səviyyəsi hakimiyyət və özünüidarə orqanının kiçik seçici korpusu tərəfindən seçilməsinə gətirib çıxarır. Bu da həmin orqanların legitimliyinin şübhə altına alınmasına əsas yaradır. Digər tərəfdən absenteizm kütləvi saxtakarlıqlar üçün əlverişli şərait yaradır. Seçkilərdə iştirakın məcburi həddi müəyyən edildiyi hallarda absenteizm seçki prosesinin nəticəsizliyinə də səbəb ola bilər. Absenteizmin bir sıra obyektiv səbəbləri (seçici korpusunun həm hakimiyyəti, həm də müxalifəti təmsil edənlərə inamın aşağı düşməsi, indiyə qədər keçirilən seçkilərdə açıq saxtakarlıq hallarının olması və s.) var. Lakin ciddi subyektiv səbəb kimi isə seçicilərin əsassız laqeydliyi və ətaləti xüsusi vurğulanmalıdır. Şübhəsiz ki, absenteizmə qarşı mübarizənin səmərəli hüquqi mexanizmləri olmalıdır. Təcrübə göstərir ki, başqa vasitələr az səmərəlidir və arzuolunan nəticəni vermir. İstər müxtəlif səviyyəli dövlət orqanlarına, istərsə də bələdiyyələrə seçkilər ərəfəsində ayrı-ayrı siyasi qüvvələrin seçkilərə ciddi hazırlığı və fəal seçki kampaniyası təşkil etməsi müşahidə olunub.

Seçicilərlə görüşlər, təşviqat vasitələrindən istifadə, müxtəlif qanuni təbliğat seçiciləri səsvermədə fəallığa cəlb eğmək üçün nəzərdə tutulan mexanizmlərdir. Lakin

bu mexanizmlərin absenteizmin səviyyəsini aşağı salmağa kifayət etmədiyi, fikrimizcə, artıq mübahisə doğurmur. Eləcə də son günlər seçkilərin beynəlxalq təşkilatların himayəsi və ya nəzarəti altında keçirilməsi ilə bağlı irəli sürülən təkliflər gerçəkləşsə belə, absenteizmə əhəmiyyətli təsir göstərmək mümkün olmayacaq. Ona görə də, ən yaxşı yol qanunun gücündən istifadədir. Söhbət *məcburi votumun*, yəni seçicilərin səsvermədə iştirakını məcbur edən hüquqi vəzifənin qanunvericilikdə nəzərdə tutulmasından gedir. Avstraliya («tənbəl» seçicinin cərimə olunması, Yunanıstan, Türkiyə (səsvermədə iştirak etməməyə görə hətta azadlıqdan məhrumetmənin tətbiqi), Belçika (ilk dəfə səsvermədə iştirak etməmənin töhmət və ya kiçik cərimə ilə, ikinci dəfə iştirak etməmənin birincidən altı ilə qədər vaxt keçmişsə, daha böyük cərimə ilə nəticələnməsi, birinci dəfədən altı ildən on ilədək vaxt keçdikdə isə seçicinin soyadının yaşayış yeri üzrə kommunal idarənin binasında xüsusi siyahıda asılması), Argentina (nəinki seçicinin cərimə olunması, eləcə də onun üç il ərzində dövlət vəzifələri tutmaq imkanından məhrum edilməsi) kimi ölkələrin təcrübəsi məcburi votumun əhəmiyyətini sübut edir (7, 204-205). Bu baxımdan yəqin ki, heç kəs həmin ölkələri qeyri-demokratikliyinə görə günahlandıra bilməz.

Əgər kimin seçiləcəyinin seçici üçün fərqi yoxdursa, o, öz əqidəsinə görə deyil, başqasının məsləhəti ilə səs verəcək. Əlbəttə, biz bu halı istisna etmirik. Ancaq hesab edirik ki, hazırkı şəraitdə məcburi votum tətbiq edilsə, belə hallar seçkilərin nəticələrinə az təsir edəcək.

Seçicilərin səsverməyə cəlb edilməsi üçün qanunvericilikdə bir sıra tədbirlər nəzərdə tutulur:

- vətəndaşların səsvermədə iştirakının zəruriliyi haqqında dövlət orqanları tərəfindən izahat işlərinin aparılması. Bunun üçün büdcədən vəsait ayrılır. Əgər vətəndaşların səsvermədə iştirakının qanunla müəyyən olunmuş faizi əldə olunmazsa, təkrar seçkilərin və ya təkrar səsvermənin keçirilməsi zəruri hesab edilir;
- qanun seçkilərin baş tutmuş hesab edilməsi üçün vətəndaşların səsvermədə iştirakının nisbətən aşağı faizini (50%, 30% və Azərbaycanda isə 25%) nəzərdə tutur. Bəzi ölkələrdə isə konkret müəyyən edilmiş faiz, ümumiyyətlə, olmur. (Məsələn, ABŞ-ın ştatlarında və bir sıra ölkələrdə);
- bir sıra ölkələrin qanunları seçkilərdə iştirakı təkcə mənəvi borc deyil, həm də hüquqi vəzifə kimi müəyyən edir (Avstriya, Belçika, Bolqarıstan, Braziliya, Yunanıstan, Danimarka, İtaliya, Niderland, Türkiyə və s.). Seçkilərdə iştirak etməməyə görə məhkəmə müəyyən müddətə seçki hüquqlarından məhrum etmək hüququna malikdir. Bunun nəticəsində həmin şəxs dövlət və ya bələdiyyə xidmətində vəzifə tutmaq hüququnu itirir. Qanuna müvafiq olaraq məhkəmə tərəfindən cərimə müəyyənləşdlməsi mümkündür (Misirdə 1 ABŞ dollarına yaxın, Türkiyədə təqribən 14 ABŞ dolları, təkrar iştirak etməməyə görə isə Lüksenburqda 240 ABŞ dolları, Belçikada 25 franka qədər cərimə). Ən ciddi cəza isə bir neçə ayadək azadlıqdan məhrumetmə hesab olunur. Məsələn, yaxın keçmişdə Pakistanda bu cəza növündən istifadə olunurdu. Lakin cərimə və ya başqa cəzalar səsvermədə iştirakı fakultativ olan şəxslərə (Braziliyada 16-18 yaşında olan və 70 yaşdan yuxarı aid edilmir (3, 47-48).

Bəzən siyasi nəzəriyyələrdə belə bir təkliflə çıxış edərək qeyd edirlər ki, məcburi votumun tətbiq edilməyəcəyi bəzi hallarda kumulyativ (cumulatio- toplanma) votum sisteminin tətbiqi məqsədəuyğun hesab olunur. Bu sistem onunla səciyyələnir ki, çoxmandatlı dairədə hər bir seçici seçiləcək namizədlərin sayı qədər və ya daha az səsə malikdir (burada bütün seçicilərin səslərinin sayı eynidir) və öz səslərini nami-

zədlər arasında istədiyi qaydada bölüşdürür: seçici bir neçə namizədin hər birisinə bir səs verə bilər, ya da namizədlərdən hansınasa özünün bütün səslərini toplu halda verə bilər, yəni öz səslərini bir namizəd üçün toplaya bilər.

Bu sistem Almaniyanın bir çox torpaqlarında, o cümlədən Bavariyada, həmçinin əvvəllər Almaniya Demokratik Respublikasının mövcud olduğu şərqi alman torpaqlarında tətbiq olunur. Burada hər bir seçicinin üç səsi var, seçki bülletenində hər namizədin soyadı qarşısında üç boş dairə yerləşdirilmişdir. Seçici aşağıdakı variantlardan birini tətbiq edə bilər:

-bülletendəki soyadların qarşısındakı dairələrdən birinin içərisinə xaç işarəsi qoymaqla hər bir namizədə bir səs verə bilər;

- namizədlərdən birinə iki səs, o birisinə bir səs verə bilər;
- hər üç səsi namizədlərdən birinə verə bilər;
- bülleteni doldurmadan namizədlərin heç birini müdafiə etməyə bilər (7, 158).

Bu sistemin müəyyən üstünlükləri vardır. Çünki seçicinin bir səsə malik olması onun seçim imkanlarını məhdudlaşdırır. Seçicinin simpatiyası təkcə bir namizədə yönəlməyə də bilər və o hesab edə bilər ki, namizədlərin bir neçəsi eyni dərəcədə etimada layiqdir. Seçicinin rəyi hər bir halda reallığı əks etdirməsə də, bu sistemin tətbiqi nəticədə ən layiqli namizədin seçilməsinə səbəb olar.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Seçki Məcəlləsi. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2008, 338 s.
2. Çirkin V.Y. Xarici ölkələri konstitusiya hüququ. Bakı: Digesta, 2000, 724 s.
3. Həsənov H. Seçki hüququ və seçki sistemləri. Bakı: Adiloğlu, 2002, 79 s.
4. Novruzov S.D. Seçki kampaniyasının planlaşdırılması və idarə olunması. Bakı: Azərbaycan, 2003, 270 s.
5. Seçki texnologiyaları Bakı: «İnam» Plüralizm Mərkəzi, 1998, 24 s.
6. Скрипкина Ж.Б. Избирательные системы и технологии. М.: Вузовский учебник, 2006, 174 с.
7. Сухов А.Н.Выборы: теория и практика. М.:МПСИ; Воронеж: НПО МОДЭК, 2006, 255 с.
8. Кошелюк М.Е.Технологии политических выборов. СПб: Питер, 2004, 239 с.
9. Ковлер А.И. Стратегия избирательной кампании и ее планирование М.: РЦОИТ при ЦИК России , 1999, 71 с.
10. Игнатов В.Г., Кутырев Н.П. Кичлицын С.А. Технологии избирательных кампаний. Москва-Ростов-на-Дону: Издательский центр Март, 2004, 271 с.
11. Шарков Ф.И. Политический консалтинг. М.: Издательско-торговая корпорация «Дашков и К», 2007, 458 с.
12. Соловьев А.И. Политология: политическая теория, политические технологии. М.: Аспект Пресс , 2006, 554 с.


## ИЗБИРАТЕЛЬНЫЙ ПРОЦЕСС И ИЗБИРАТЕЛНЫЕ ТЕХНОЛОГИИ


**К.М.ШИХИЕВА**


### РЕЗЮМЕ


В статье освещаются некоторые принципы подготовки и проведения выборов, рассматриваются этапы проведения выборов и различные избирательные технологии. В

процессе исследования автор последовательно рассматривает процессы, начиная с объявления даты выборов до процесса голосования. Особое внимание уделяется освещению различных аспектов использования технологий избирательных кампании: моделированию, стратегии и тактике. В тоже время автор затрагивает и проблемы абсентеизма, показывая его прицины и основные способы преодоления.

## ELECTORAL PROCESS AND ELECTORAL TECHNOLOGIES

**K.M.SHIKIYEVA**

## SUMMARY

The article analyzes some principles of organizing conducting elections, stages of conducting elections and electoral technologies. All the electoral process from the announcement of the date of the election till the process of voting is systematically considered in the article. The author focuses on the analysis of different aspects of the electoral campaign technology: modeling, strategy and tactics. Further, the author touches upon election problems such as absentizm illustrating its principles and basic means of overcoming it.